

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 170 (21.322)

1 sentyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də İsrail Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dan Stavın etimadnaməsini qəbul edib.

Səfir Dan Stav fəxri qarovul dəstəsinin qarşısından keçib.

Dan Stav etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovsun etimadnaməsini qəbul edib.

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 14-cü maddəsinin II hissəsini və 5-ci maddəsinin II hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 avqust 2015-ci il*

## Ə.H.Əhmədova general-leytenant hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Əhməd Hüseyn oğlu Əhmədova general-leytenant hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 avqust 2015-ci il*

## K.E.Ələkbərovun Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Kamal Elbrus oğlu Ələkbərov Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 avqust 2015-ci il*

## R.Ə.Cəfərovun Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Ramiz Əli oğlu Cəfərov Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 avqust 2015-ci il*

## Naxçıvanda muzeylər ziyarət olunur

*Avqustun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində olmuşlar.*



Görkəmli sərkərdəyə böyük hörmət və ehtiramın ifadəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il aprelin 2-də "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunmuş, görkəmli sərkərdənin yubileyi qeyd edilmişdir.

Ziyarətçilərə məlumat verilmişdir ki, Cəmşid Naxçıvanski Naxçıvan xanları nəslindən olan 6-cı generaldır. O, bir-birinə zidd olan üç quruluşda xidmət etmişdir. Buna baxmayaraq, görkəmli sərkərdə şərəfli zabit adına ləkə gətirməmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan xalqının digər görkəmli nümayəndələri kimi, repressiya qurbanı olan Cəmşid Naxçıvanski də əsl bəraətini ulu öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanın rəhbəri seçiləndən qısa müddət sonra "Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi haqqında" qərarı ilə almışdır. Bundan sonra Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanskinin ev-muzeyi yaradılmış, bir məktəbə və küçəyə Cəmşid Naxçıvanskinin adı verilmişdir.

Muzeyin fondunda 6000-ə yaxın eksponat qorunub saxlanılır. Burada generalın uşaqlıq, aldığı ilk hərbi təhsil illərinə, Birinci Dünya müharibəsində döyüş yoluna, 1921-1931-ci illərdə Azərbaycan diviziyasına komandirliyi dövrünə aid, M.V.Frunze adına Hərbi Akademiyada oxuduğu illərə, habelə akademiyada hərbi pedaqoji fəaliyyəti dövrünə dair sənədlər və fotoşəkillər, eləcə də müxtəlif vaxtlarda yazdığı məqalələr, görkəmli sərkərdə haqqında yazılmış kitablar və onun şəxsi əşyaları mühafizə olunur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət etmişlər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Heydər Əliyev Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, İqtisadiyyat və Sənaye, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları Ədəbiyyat Muzeyində, Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Dövlət Bayrağı Muzeyində olmuşlar.

Şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayonlarda fəaliyyət göstərən muzeyləri ziyarət etmişlər.

**"Şərq qapısı"**

## Sədərək kəndində uşaq musiqi məktəbi üçün yeni bina tikilir



*Son illər muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Şəhər, qəsəbə və kəndlərdə müasir mədəniyyət ocaqlarının, o cümlədən uşaq musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Bu tədbirlər uşaq və yeniyetmələrin musiqi istedadının üzə çıxarılmasına və inkişaf etdirilməsinə xidmət edir.*

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrimizdə uşaqlara musiqi təhsili verən ünvanların sayı artmaqdadır. Növbəti belə ünvan Sədərək rayonunda yaradılır. Hazırda rayonun Sədərək kəndində uşaq musiqi məktəbi üçün yeni bina inşa olunur. Tikinti işləri Sədərək Rayon Təsərrüfathesablı Tikinti-Quraşdırma İdarəsinin kollektivinə həvalə edilib.

İdarədən aldığımız məlumata görə, inşaat işlərinə bu ilin aprel ayından başlanılıb. İnşaatçılara yaradılan şərait hesabına ötən müddət ərzində tikinti işlərinin böyük qismi başa çatdırılıb. Binanın çardağı qurulub. Hazırda binanın daxilində suvaq işləri həyata keçirilir, fasad hissədə travertin üzlük daşlarla üzləmə işləri aparılır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binanın həyətində yaxın vaxtlarda abadlıq işlərinə başlanacaq, ərazidə müasir işıqlandırma sistemləri quraşdırılacaq, yaşıllıqlar salınacaq. İnşaatçılar binanın nəzərdə tutulduğu vaxtda təhvil verilməsi üçün səy və bacarıqlarını əsirgəmirlər.

Mədəniyyətimizin gələcək daşıyıcıları olan uşaqlara hərtərəfli musiqi təhsili verilməsi üçün hər cür şərait yaradılacaq, binada 34 sinif otağı, orkestr zalı, musiqi nəzəriyyəsi və ədəbiyyat kabinələri, kitabxana, iclas zalı və digər otaqlar müəllim və şagirdlərin ixtiyarına veriləcək.

**Xəbərlər şöbəsi**

## Naxçıvana gələn turistlərin sayı artıb

Naxçıvanın zəngin turizm ehtiyatlarından istifadə edərək mənalı istirahət arzusunda olan və bunu reallığa çevirən turistlərin sayı ildənilə artmaqdadır. Builki yay turizm mövsümünü də bu mənada uğurlu saymaq olar. Belə ki, 2015-ci ilin yanvar-iyul ayları ərzində muxtar respublikamızda müxtəlif turizm marşrutları üzrə səyahət edən turistlərin sayında artım olmuşdur. Əldə olunmuş statistik məlumatlara əsasən, bu müddətdə muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 207 min 374 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 3,4 faiz və ya 6807 nəfər çoxdur. Muxtar respublikaya gələn turistlər, əsasən, tanışlıq, işgüzar görüşlər, elmi, müalicə, dini ziyarət, tranzit, dağ, ekoturizm, kənd yaşıl turizm növləri üzrə səyahət edirlər. Naxçıvanda turizm sektorunda xidmət mədəniyyətinin yüksəldilməsi, Naxçıvan şəhərində və bölgələrdə istirahət və əyləncə mərkəzlərinin yaradılması, müasir standartlara cavab verən otel və yeməkxana şəbəkəsinin təşkili də muxtar respublikada turizmin inkişafını sürətləndirir.

Kənd təsərrüfatı ili

# Aqrar sektorun inkişafı məhsul bolluğunun yaradılmasına imkan verir

*Əhalinin etibarlı ərzaq təminatı strateji əhəmiyyət daşıdığından Naxçıvanda aqrar sektorun inkişafına ciddi diqqət yetirilir. Statistik rəqəmlər muxtar respublikada aqrar sektorun son 20 ildə daim yüksələn dinamika üzrə inkişaf etdiyini göstərir. Son 20 ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 3 dövlət proqramı qəbul olunmuşdur. Qəbul edilmiş dövlət proqramlarında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı daim diqqət mərkəzində olmuşdur.*



Öz tarixi ənənələri və coğrafi mövqeyi ilə daim diqqəti cəlb edən Naxçıvan Muxtar Respublikasında təbii və əmək ehtiyatlarından səmərəli istifadə olunmaqla ardıcıl tədbirlər həyata keçirilmişdir.

2015-ci il Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilmişdir. İlin əvvəlindən aqrar sektorda mühüm tədbirlərin həyata keçirilməsinə start verilmişdir. Əsas məqsəd aqrar sektorun infrastrukturunun dünya standartları tələblərinə uyğun uzlaşdırılması, yeni texnologiyanın tətbiqinin genişləndirilməsi və modernləşdirilmənin sürətləndirilməsi, torpaq-iqlim şəraitinə görə aqrar sektorun müxtəlif aparıcı sahələri üzrə regionların ixtisaslaşdırılması, rayonlarda dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunmaqla çoxşaxəli istehsalçı – emal sənayesi – son məhsulun satışı kimi prioritet sahələrin gələcək inkişafını təmin edən müasir aqroparkların baza əsasının yaradılmasıdır.

Blokada vəziyyətində olan muxtar respublikada kənd təsərrüfatı əhalini ərzaq məhsulları, emal sənayesini xammalla təmin etdiyindən əhalinin əsas məşğulluq sahələrindəndir. Bölgədə çoxlu sayda müasir sənaye müəssisələri yaradılsa da, muxtar respublikanın coğrafi mövqeyi aqrar bölmənin inkişafına uyğun gəldiyindən bu sahəyə daha çox diqqət yetirilir. Aqrar islahatların nəticəsi kimi kənd təsərrüfatında tələbata uyğun strateji istiqamətlərin dəqiq müəyyənləşdirilməsi, meyvəçilik və tərəvəzçilik sahəsində dünya standartlarına cavab verən emal və istehsal müəssisələrinin yaradılması, yerli istehsalın artırılması ilə onların idxalının tədricən azaldılması və digər problemlərin həlli üçün uzunmüddətli proqramların hazırlanmasına ciddi ehtiyac duyulurdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci ildə imzaladığı "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqındakı Sərəncam hazırkı dövrdə əhalinin artan tələbatına uyğun olaraq meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənədidir. Bu sərəncamla muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur.

Dövlət proqramına uyğun olaraq, meliorasiya və irriqasiya tədbirlərinin, lizinq xidmətinin genişləndirilməsi, istixana komplekslərinin, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafına əlverişli şərait yaratmışdır. Nəticədə, yeni meyvə bağları salınmış, tərəvəz əkini sahələri genişləndirilmişdir.

Qeyd edək ki, muxtar respublikada iqtisadiyyatın bütün sahələri üzrə sürətli inkişaf təmin olunmaqla aqrar sektorun dinamik inkişafı üçün müasir infrastruktur yaradılmışdır. Kənd yerlərində heyvandarlıq təsərrüfatları genişləndirilmiş, meyvə, tərəvəz məhsullarının istehsalı artırılmış, taxılçılıq artan dinamika üzrə inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında meyvəçilik və tərəvəzçilik əhalinin əsas məşğulluq sahələrindən biridir. Regionda torpaq-iqlim şəraiti müxtəlif giləmeyvə, meyvə ağaclarının tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Düzən, dağətəyi və dağlıq ərazilərdə alma, armud, ərik, şaftalı, gavalı, alça, badam, cəviz və sair meyvə bağlarının salınması üçün əlverişli ekoloji mühit mövcuddur. Tarixən bu ərazidə müxtəlif genetik xüsusiyyətləri ilə fərqlənən meyvə, tərəvəz və üzümün zəngin genofondu yaradılmışdır. Regionda 100-dən çox meyvə sortları, 150-dən çox üzümün sort və formalarından ibarət meyvə və üzüm kolleksiya bağı salınmışdır. Kolleksiya bağında bu bitkilər qorunub artırılmaqla üzərində elmi-tədqiqat işləri aparılmış, aqrobioloji, biomorfoloji, morfogenetik və biokimyəvi xüsusiyyətləri öyrənilmişdir.

Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında anbar və saxlama kameralarının yaradılması strateji əhəmiyyət kəsb edir. Muxtar respublikada 2004-2014-cü illərdə ümumi tutumu 12 min 250 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min 400 ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı istifadəyə verilmişdir.

Aqrar sahənin inkişafına göstərilən qayğı 2015-ci ilin ötən dövründə də davam etdirilmiş, uğurlu nəticələrə nail olunmuşdur. Cari ilin ilk 6 ayının göstəriciləri də bunu sübut edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Aparılmış tədbirlərin nəticəsidir ki, cari ilin birinci yarısında bitkiçilik məhsulları istehsalının həcmi 2008-ci ilin yanvar-iyun aylarına nisbətən 3,5 dəfə artaraq 54 milyon 783 min manata, heyvandarlıq məhsulları istehsalının həcmi isə 91,1 faiz artaraq 56 milyon 88 min manata çatmışdır.

Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcmi 25 faiz artırılaraq 50 manata çatdırılmışdır. Ötən dövr ərzində məhsul istehsalçıları 5939,1 ton mineral gübrə ilə təmin olunmuşlar.

2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin aparılmışdır ki, bu da 2014-cü ilin məhsulu üçün əkilmiş sahədən 585 hektar çoxdur.

Ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2015-ci ilin məhsulu üçün 36237 hektar sahədə taxıl əkilmişdir. Bunun da 30166 hektarı payızlıq, 6071 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 487,3 hektar artmışdır. Taxıl zəmilərinin 26746 hektarında buğda, 9491 hektarında isə arpa əkilmiş, sahələrdə bol məhsul yetişdirilmiş, zəmilərdən 106 min 282 ton məhsul toplanmışdır.

Tələbata uyğun olaraq, kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2015-ci ildə 2967 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2014-cü ildə əkilmiş sahədən 5 hektar çoxdur.

Muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə 2015-ci ilin ötən dövrü ərzində 4 istixana təsərrüfatı yaradılmışdır.

Cari ilin ilk yarımili ərzində kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 10661,3 min manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 26,9 faiz çoxdur.

2015-ci ilin yanvar-iyun aylarında 2014-cü ilin müvafiq dövrünə nisbətən 9,4 faiz çox, yəni 110 milyon 870 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Azərbaycan Prezidentinin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamında Kənd Təsərrüfatı Nazirliyinə fermerlərə informasiya-məsləhət xidmətinin səmərəli təşkili sahəsində müvafiq tədbirlər görülməsi barədə tapşırıqlar verilmişdir. Aqrar sektorun müasir tələblərə cavab verəcək sürətli inkişafı informasiya-məsləhət xidmətlərinin fəaliyyətindən daha çox asılıdır. Bu istiqamətdə muxtar respublikada lazımi tədbirlər həyata keçirilir, fermerlərə müxtəlif informasiya-məsləhət xidmətləri göstərilir. Müasir dövrdə kənd təsərrüfatı üzrə hər bir rayonda ixtisaslaşmanın aparılması, rəqabətədavamlı məhsulların beynəlxalq bazarlara çıxarılması üçün strateji istiqamət müəyyənləşdirilmişdir. Buna müvafiq olaraq ölkə Prezidenti tərəfindən kənd təsərrüfatının innovativ üsullarla inkişaf etdirilməsi və ixrac potensialımızın çoxşaxəli olması barədə tapşırıqlar verilmişdir.

Muxtar respublikada da aqrar sektorun daim yeniləşməsi, kənd təsərrüfatı məhsullarının becərilməsinin, istehsalının və emalının innovativ üsullar əsasında təşkili müasir dövrün tələbidir. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsullarının istehsalı üzrə bölgələrin ixtisaslaşması daha çox işçi qüvvəsindən səmərəli istifadə olunmasına, müxtəlif yerli kənd təsərrüfatı məhsullarının xaricə ixrac edilməsinə zəmin yaradır. Kənd təsərrüfatı üzrə kadr hazırlığı, bitki və heyvan mənşəli məhsulların istehsalında ixtisaslaşmanın aparılması ilə paralel olaraq dünyanın qabaqcıl ölkələrində olduğu kimi, iri təsərrüfatların yaradılması aqrar sektorun daha sürətli inkişafına imkan verəcək.

Regionda aqrar sektorun inkişaf etdirilməsi istiqamətləri "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da öz əksini tapmışdır. Dövlət proqramına uyğun olaraq, muxtar respublikada kənd əhalisinin maddi rifahının daha da yüksəldilməsi üçün əsas kənd təsərrüfatı məhsulları üzrə bölgələrin ixtisaslaşdırılması, istehsal olunan ərzaq məhsullarının toplanmasında və satışının təşkilində dövlət dəstəyinin daha da artırılması, müasir aqroparkların yaradılması, məhsulun becərilməsində stimullaşdırıcı tədbirlərin və innovativ texnologiyanın tədqiqi, bir-biri ilə əlaqəli iri, xırda və orta müəssisələr qrupunun, habelə onların fəaliyyəti ilə bağlı olan təşkilatların bölgədə cəmləşməsinin həyata keçirilməsi, fermerlərə müvafiq informasiya-məsləhət xidməti şəbəkəsinin fəaliyyətinin artırılması, nəticədə, daxili və xarici bazarlarda rəqabətədavamlı ərzaq məhsulları istehsalının artırılması strateji istiqamətlər təşkil edir.

**Varis QULİYEV**
***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmləri doktoru***

***Son illər muxtar respublikada həyata vəsiqə alan ixracyönümlü müəssisələrdən biri də Babək rayonunun Araz kəndi ərazisində fəaliyyət göstərən Naxçıvan "Təchizat" Açıq Səhmdar Cəmiyyətinin dəri emalı və yumurta taraları istehsalı müəssisəsidir.***

*Naxçıvan məhsulları xarici bazarda*

# Naxçıvan "Təchizat" Açıq Səhmdar Cəmiyyəti ixrac potensialını artırır

Sahibkar Arzu Dünyamalıyev bizimlə söhbətində qeyd etdi ki, müəssisəyə Sahibkarlığa Kömək Fondundan 2010-cu ilin iyun ayında 150 min manat dövlət maliyyə dəstəyi göstərilib və layihəyə uyğun istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilib, dəri emalı və yumurta taraları istehsalı sahələrində müasir texnoloji avadanlıqlar quraşdırılıb.

2011-ci ilin yanvar ayından fəaliyyətə başlayan müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsalı üçün hərtərəfli şərait yaradılıb, xammal ehtiyatı məqsədilə 2012-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə olaraq 50 min manat dövlət maliyyə dəstəyi göstərilib. Müəssisənin daha müasir texnoloji avadanlıqlarla təmin olunması diqqət mərkəzində saxlanılıb, İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Beləliklə, dəri emalı prosesində daha bir mərhələnin – dərinin tərkibində olan suyun kənarlaşdırılması prosesinin müəssisədə həyata keçirilməsinə başlanılıb.

Muxtar respublikamızda müasir texnoloji avadanlıqlarla təmin olunmuş "Bərəkət Ət Məhsulları Kompleksi" MMC-nin fəaliyyətə başlaması dəri emalı müəssisəsinin də daha keyfiyyətli xammalla təmin olunmasına geniş imkanlar açıb. Primitiv üsullarla kəsimi həyata keçirilən heyvanların dərilərində kəsiklərin olması emal prosesində problemlər yaradırdı. "Bərəkət Ət Məhsulları Kompleksi" MMC-də isə kəsim prosesindən ətin təhvil verilməsinədək bütün proseslər avtomatlaşdırılmış sistemlə aparıldığından dərilərdə heç bir kəsik aşkar olunmur, emal prosesi yüksək səviyyədə aparılır.

Müəssisədə istehsal olunan məhsul yarımfabrikat halında bağlanmış müqaviləyə uyğun olaraq Türkiyə Respublikasına göndərilir.

Firma və mağazalardan toplanan karton, kağız materialları emal edilərək yumurta taraları istehsal olunur. Yumurta taraları istehsalı sahəsinin aylıq istehsal gücü 65-70 min ədəddir. Bu rəqəm muxtar respublikamızda həmin məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi deməkdir.

Dəri emalı sexinin isə aylıq istehsal gücü 75-80 ton iribuynuzlu, 12-15 min ədəd xırdabuynuzlu heyvan dərisindən ibarətdir. Hazırda ay ərzində 55 tondan artıq iribuynuzlu, 4500-4600 ədəd xırdabuynuzlu heyvan dəriləri emal olunur.

Yüksəkkeyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışan kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Muxtar respublikamızda tədarük edilən və ölkəmizin digər regionlarından alınıb gətirilən iribuynuzlu və xırdabuynuzlu heyvan dəriləri emal olunaraq yarımfabrikat halında "Qaragül" əmtəə nişanı ilə Türkiyə Respublikasında fəaliyyət göstərən, bu sahə üzrə qabaqcıl təcrübəyə malik sifarişçi şirkətlərin ünvanlarına göndərilir. Müəssisənin tam gücü ilə işləməsi və əlavə işçi qüvvəsinin cəlb edilməsi istiqamətində işlər davam etdirilir, xarici ölkələrdə fəaliyyət göstərən dəri emalı sahəsində qabaqcıl təcrübəyə malik şirkətlərlə əlaqələr genişləndirilir, təcrübə mübadiləsi aparılır. Ayrı-ayrı rayonlarda fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan Rafiq Əliyev, Əbdül Vəliyev, Əliyar Eyvazov və başqaları qeyd etdilər ki, son illər muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlər digər sahələrdə olduğu kimi, heyvandarlığın inkişafına da öz müsbət təsirini göstərib, fermer və fərdi təsərrüfatlarda iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayı artıb. Nəticədə, daxili bazarın keyfiyyətli ət-süd məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Ancaq kəsilən heyvanların dərilərinin tədarük edilib emal olunması problem olaraq qalırdı. Son illər tikilib istifadəyə verilən dəri emalı müəssisəsinin fəaliyyətə başlaması ilə kəsim zamanı iribuynuzlu və xırdabuynuzlu heyvan dərilərinin tədarük olunması problemi aradan qaldırıldı. Əvvəllər kəsilən heyvanların dəriləri tədarük olunmur, hara gəldi atılıb həmin ərazidə antisanitariya vəziyyəti yaradırdısa, indi bu müəssisənin özündə və hər bir rayonda təyin olunmuş nümayəndələri tərəfindən heyvan dəriləri tədarük olunur. Bu da həm israfçılığın qarşısını alır, həm də hər bir sahibkarın büdcəsinə müsbət təsir göstərir. Eyni zamanda ətin maya dəyərinin aşağı düşməsinə səbəb olur, bazarlarda ucuzluq yaranır. Nəticədə, həm istehsalçı, həm də istehlakçı qazanır.

Yeni istehsal sahəsinin fəaliyyət göstərməsi dərilərin emal olunaraq yarımfabrikat halında ixrac olunmasına əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasına da geniş imkanlar açıb. Hazırda müəssisədə yüksək əməkhaqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunan16 nəfər çalışır. Ayrı-ayrı rayonlarda isə, ümumilikdə, 20 nəfər fiziki şəxslə müqavilə bağlanılıb. Bu isə heyvan dərilərinin vaxtında tədarük olunub müəssisəyə gətirilməsinə imkan verir.

**Kərəm HƏSƏNOV**

*Bəşər sivilizasiyasına misilsiz töhfələr bəxş etmiş Azərbaycanımızın ən möhtəşəm ədəbi abidələri sırasında "Kitabi-Dədə Qorqud" eposu xüsusi yer tutur. Xalqımızın qədim adət-ənənələri, dünyagörüşü, yaşam tərzi, məişəti, zəngin mənəvi keyfiyyətləri, qəhrəmanlıq ruhu, mərdliyi, doğma torpağa bağlılığı, yurd sevgisi eposda mükəmməl şəkildə ifadə olunmuşdur. Bu qiymətli əsər həm mövzu, məzmun və ideyasına, həm də bədii məziyyətlərinə görə bütövlükdə dünya ədəbiyyatının nadir incilərindən biridir. Ümummilli liderimiz Heydər Əliyev dastana yüksək qiymət verərək demişdir:* ***"Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir".***




# Əbədiyaşar ədəbi abidə

Ulu öndər Heydər Əliyevin siyasi kursunun yüksək səviyyədə və hərtərəfli şəkildə davam etdirildiyi müstəqil Azərbaycanda bütün digər sahələrlə yanaşı, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə də böyük diqqət və qayğı göstərilir, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Milli-mədəni irsin qorunub yaşadılması və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasında "Kitabi-Dədə Qorqud"un böyük əhəmiyyəti sərəncamda məxsusi vurğulanmışdır. Sərəncama uyğun olaraq, bu əlamətdar yubileylə əlaqədar ölkəmizdə sistemli tədbirlər həyata keçirilir.

Bu sərəncam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud" eposuna ardıcıl diqqətinin və verdiyi yüksək qiymətin növbəti parlaq təzahürüdür. 13 dekabr 2013-cü il tarixdə respublikamızın paytaxtı Bakı şəhərində Dədə Qorqud abidəsinin və Dədə Qorqud parkının açılışı, epos əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında ölkə Prezidentinin 28 dekabr 2013-cü il tarixli Sərəncamı bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Bəllidir ki, "Kitabi-Dədə Qorqud"un yaranma tarixi çox qədimdir. Elm aləmində isə bu eposun aşkarlanması, onun haqqında ilk sistemli fikirlərin ortaya çıxması 200 il bundan əvvələ təsadüf edir. 1815-ci ildə alman alimi Fridrix fon Dits Drezden Kral Kitabxanasında dastanın bir müqəddimə və on iki boydan ibarət əlyazma nüsxəsini aşkara çıxarmış, "Basatın Təpəgözü öldürdüyü boy"u alman dilinə tərcümə və nəşr etdirmişdir. Çox maraqlıdır ki, "Kitabi-Dədə Qorqud" barədə bir sıra qiymətli elmi fikirlər söyləyən Fridrix fon Dits Təpəgözlə bağlı boyu antik yunan ədəbiyyatı, daha dəqiqi, Homerin yaradıcılığında rast gəldiyimiz oxşar süjetlə müqayisə etmiş, bizim eposun, Polifemlə müqayisədə Təpəgözün daha qədim olması qənaətini irəli sürmüşdür.

Beləliklə, 200 il bundan öncə "Kitabi-Dədə Qorqud" alman alimi Fridrix fon Ditsin əməyi sayəsində elm aləminə bəlli olmuş, qorqudşünaslığın təməli qoyulmuş, dastanın nəşri sahəsində ilk addım atılmışdır.

Bir müddət sonra məşhur alman şərqşünası Teodor Neldeke "Kitabi-Dədə Qorqud"u tam halda alman dilinə tərcümə etmək istəsə də, buna nail olmamışdır. O, əlindəki materialları tələbəsi, gələcəyin böyük alimi V.Bartolda vermiş, həmin rus alimi isə uzunmüddətli zəhmətdən sonra 1922-ci ildə eposun tam halda rus dilinə tərcüməsini başa çatdırmışdır. Xatırladaq ki, həmin tərcümə ilk dəfə 1950-ci ildə Bakıda çap olunmuşdur. Dastanın ilk nəşrinə gəlincə, deyək ki, bu tarixi vəzifəni 1916-cı ildə Osmanlı ziyalısı, Kilisli müəllim Rifət həyata keçirmişdir.

1952-ci ildə italyan alimi Ettore Rossi Vatikan kitabxanasında "Kitabi-Dədə Qorqud"un başqa bir əlyazma nüsxəsini aşkarlamışdır. Həmin əlyazmada Drezden kitabxanasındakı müqəddimə və boylardan altısı vardır.

Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanı haqqında ilk elmi məqalələr 1920-ci illərin ortalarında yazılmışdır. Dastan respublikamızda ilk dəfə 1939-cu ildə məşhur ədəbiyyatşünas Həmid Araslı tərəfindən nəşr edilmişdir. Lakin sonrakı illərdə folklorumuzun bu möhtəşəm abidəsi əsassız və haqsız tənqidlərə məruz qalmış, "xalqımıza yabançı, ziyanlı bir əsər" damğası ilə pislənilmiş, hətta 1950-ci illərin başlanğıcında qadağan olunmuşdur. Yalnız 1957-ci ildə "Kitabi-Dədə Qorqud" haqqında müsbət fikirlər səslləndirilməsinə başlanılmış, sonrakı illərdə bir sıra araşdırmalar ortaya çıxmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə dastanın hərtərəfli şəkildə təbliği, tədqiqi sahəsində daha əsaslı işlər görülmüşdür. Məhz dahi rəhbərin həmin illərdə bütün digər sahələrlə yanaşı, milli-mədəni irsə böyük qayğısının nəticəsində "Kitabi-Dədə Qorqud" eposuna da maraq və diqqət artmışdır. Bunun nəticəsində bir sıra yeni tədqiqatlar çap edilmişdir. 1975-ci ildə ikihissəli "Dədə Qorqud" bədii filminin çəkilməsi dastanın daha da populyarlaşmasına səbəb olmuşdur.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də "Kitabi-Dədə Qorqud"a böyük dəyər vermiş və ardıcıl diqqət göstərmişdir. Dahi rəhbərin 20 aprel 1997-ci il tarixli Sərəncamı əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin geniş şəkildə qeyd edilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilmiş, respublikamızda və bir sıra xarici ölkələrdə elmi konfranslar təşkil olunmuşdur. 1998-ci ildə YUNESKO-da beynəlxalq simpoziumun təşkili eposun dünya miqyasında təbliği işinə ciddi töhfə idi. 2000-ci ildə ikicildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyası"nın nəşri də bu baxımdan böyük önəm daşıyır. Elə həmin il dastanın 1300 illiyi ilə əlaqədar Bakıda möhtəşəm zirvə tədbiri keçirilmişdir. Yubileylə əlaqədar dastan haqqında çoxsaylı yeni tədqiqat əsərləri nəşr olunmuşdur və eposun yeni təfəkkür işığında öyrənilməsi istiqamətində fundamental araşdırmalar bu gün də uğurla davam etdirilir.

Alman alimi Fridrix fon Ditsin "Kitabi-Dədə Qorqud"u aşkara çıxarmasından ötən 200 il ərzində dünyada qorqudşünaslıq sahəsində sanballı işlər görülmüşdür. Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrdə də "Kitabi-Dədə Qorqud" müxtəlif vaxtlarda nəşr olunmuş, o cümlədən ingilis, fransız, alman, italyan, polyak, fars, gürcü, latış və sair dillərdə oxuculara çatdırılmışdır. Eyni zamanda dastanla bağlı bir çox qiymətli tədqiqatlar aparılmış, dünya qorqudşünaslığı yüzlərlə kitab və məqalələrlə zənginləşmişdir.

Bu möhtəşəm eposa tədqiqatçılarla yanaşı, şair, yazıçı və dramaturqlar da müraciət etmiş, dastan əsasında çoxsaylı və müxtəlif janrlı bədii əsərlər qələmə alınmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da "Kitabi-Dədə Qorqud"la əlaqədar çoxsaylı işlər görülmüş və görülməkdədir. Hələ 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsinin ucaldılması təkcə xalqımızın müdriklik rəmzi olan bu böyük ozana deyil, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsi kimi mühüm dəyərə malikdir. Fərəhli haldır ki, müstəqillik dövrü Azərbaycan qorqudşünaslığında ortaya çıxmış mühüm əsərlər sırasında naxçıvanlı alimlərin tədqiqatları da özünəməxsus yer tutur. Bu baxımdan mərhum coğrafiyaşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Səfərəli Babayevin "Kitabi-Dədə Qorqud" və Naxçıvan toponimləri mövzusunda yazdığı monoqrafiyanı ayrıca xatırlatmaq olar. Həmin əsərdə Naxçıvandakı bir sıra toponimlərin dastanla əlaqəsi elmi şəkildə aşkarlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda da sistemli işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi Tədbirlər Planına əsasən, bu yubiley geniş şəkildə qeyd olunur. Keçirilən elmi konfranslar, kütləvi informasiya vasitələrində verilən müvafiq materiallar və sair bu baxımdan təqdirəlayiqdir.

Ümumiyyətlə, zaman-zaman keçirilmiş tədbirlərdə, aparılmış tədqiqatlarda, çap olunmuş kitab və məqalələrdə "Kitabi-Dədə Qorqud"un ideya-bədii mükəmməlliyi, dünya epos ənənəsində tutduğu önəmli mövqe xüsusi vurğulanmışdır. Məşhur türk alimi Mehmet Fuad Köprülü vaxtı ilə yazırdı: "Kitabi-Dədə Qorqud"u tərəzinin bir gözünə, bütün türk ədəbiyyatını o biri gözünə qoysan, yenə də "Dədə Qorqud" tərəf ağır gələr".

*Belə bir qiymətli ədəbi abidə yaratmış xalq, sözün əsl mənasında, fəxr edə, qürur duya bilər.*

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru,*
*Əməkdar elm xadimi*

# Hinduşah Naxçıvaninin əsərləri dilimizin tarixini öyrənmək baxımından çox qiymətli bir mənbədir

***Zəngin tarixə, böyük elmi irsə malik Azərbaycan xalqı görkəmli ictimai xadimlər yetirmişdir. Bu baxımdan Azərbaycanın ən qədim diyarı, şəhər mədəniyyətinin 5000 ildən artıq yaşı olan Naxçıvan torpağı tarixə tanınmış sülalələr, görkəmli şəxsiyyətlər bəxş etmişdir. Naxçıvan diyarının görkəmli yetirmələrindən, tarixi şəxsiyyətlərindən biri də ilk farsca-azərbaycanca lüğətin müəllifi Hinduşah Naxçıvanidir.***

Hülakü xan İran, İraq, Qafqaz və Anadoluya hakim olanda elxan titulunu aldı. Beləliklə, onun yaratdığı yeni dövlət Elxanlı (elxani) adını aldı. Elxanlıların ən mühüm paytaxtları Təbriz və Marağa şəhərləri olmuşdur. Elxanlılar ədəbiyyat, mədəniyyət və ticarətə, təbiət elmlərinə, tarixçiliyə böyük əhəmiyyət vermişlər. Bu dövlətin vaxtında nücum (astronomiya), riyaziyyat, tibb, fəlsəfə, tarix və coğrafiya kimi elm sahələrində tanınmış elm xadimləri yetişmiş, möhtəşəm əsərlər yazılmışdır. Nəsirəddin Tusinin yaratdığı Marağa rəsədxanası Şərqdə nücum elminin mərkəzinə çevrilmişdir. Həmin dövrdə bir sıra elm adamları, tanınmış sülalələr Şərqin məşhur mədəniyyət mərkəzi halına gəlmiş Təbrizə, Marağaya yerləşmişdilər. Bu sülalələrdən biri də Səncər ibn Abdulla ən-Naxçıvani sülaləsidir. Nəvə Məhəmməd Naxçıvaninin yazdığına görə, bu sülalə Naxçıvan bölgəsinin Kiran şəhərindən çıxıb.

Səncər Naxçıvaninin üçüncü oğlu Fəxrəddin Əbülfəzl Hinduşah əs-sahibi dövrün filosofu, münəccimi, yazıçısı, tərcüməçisi, şairi, tarixçisi, dilçisi kimi tanınmışdır. 1245-ci ildə dünyaya gələn Hinduşah Naxçıvani Bağdadda Müstənsəriyə mədrəsəsində təhsil almışdır. Hinduşah Naxçıvani otuz yaşlarında ikən Kaşan hakiminin naibi vəzifəsində işləmiş, sonralar Müstənsəriyə mədrəsəsində müdərris olaraq çalışmışdır. 1289-cu ildə həmin mədrəsə üçün Nəcməddin Əli ibn Ömər əl-Qəzvini əl-Katibinin məntiqə dair "Came əl-dekaik fi əl-həqaiq" əsərinin üzünü köçürmüşdür. Bu əlyazma nüsxəsi Qahirədə Ərəbşünaslıq İnstitutunun əlyazmalar bölümündə mühafizə edilməkdədir.

Onun fars və ərəb dillərində yazdığı şeirlərdən parçalar oğlu Məhəmməd Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" adlı əsərində günümüzə qədər gəlib çıxmışdır. Eyni zamanda oğlunun "Sihahül-fürs" lüğətində də ata Naxçıvaninin farsca şeirlərindən, təxminən, 50 beyt yer almaqdadır. Dövrün görkəmli elm və dövlət xadimi kimi tanınmış Hinduşah Naxçıvani Fəxrəddin (dinin fəxri) tituluna layiq görülmüşdür.

Hinduşah Naxçıvaninin zəngin elmi irsindən bizə "Təcarüb əs-sələf" və "Əs-sihah ül-əcəmiyyə" adlı əsərləri və 1307-ci ildə Təbrizdə ərəbcə olaraq yazıb bitirdiyi "Məvarid əl-ərab" adlı antologiyası gəlib çatmışdır. "Təcarüb əs-sələf" (1324) adlı tarixə aid əsərini Hinduşah Naxçıvani Böyük Lur atabəyi Nüsrətəddin Əhməd ibn Yusif şaha (1296-1330) ithaf etmişdir. "Təcarüb-əs-sələf" Əməvi və Abbasi xəlifələri və vəzirlərinə həsr olunsa da, müəllif yeri gəldikcə zəmanəsinə aid məsələlərə toxunur, haşiyə çıxaraq öz dövrü barədə məlumat verir, müasirlərindən bəhs edir. Əsərdə Cüveyni ailəsinə böyük ehtiram bəsləyən Hinduşah Naxçıvani Vənənd kəndində Şəmsəddin Məhəmməd Cüveyni tərəfindən layiqli xanəgah tikildiyini xəbər verir.

Qeyd edək ki, Azərbaycan lüğətçiliyinin tarixi çox qədimdir. Bu sahədə nəsrlə yazılmış ilk lüğət isə XIII əsrin sonlarında Hinduşah ibn Səncər Naxçıvaninin qələmindən çıxmışdır.

Hinduşah Naxçıvaninin "Əs-sihah ül-əcəmiyyə" əsəri uzun müddət nəşr olunmamış və müxtəlif mübahisələrə səbəb olmuşdur. Əsəri elm adamları uzun müddət yanlış olaraq onun oğlu Məhəmməd Naxçıvaninin "Sihahül-fürs" əsəri ilə eyniləşdirmişlər. Amma 1963-cü ildə Azərbaycan şərqşünası H.Zərinəzadənin xidməti sayəsində əsərin əlyazma nüsxəsi təsbit edilib gün işığına çıxarıldı və məlum oldu ki, bu əsər "Sihahül-fürs" deyil və onu Hinduşah Naxçıvani qələmə almışdır. "Əs-sihah ül-əcəmiyyə" lüğətinin müəllifi haqqında müzakirələrin uzanmasına səbəb olan amillərdən biri də əsərin müqəddimə hissəsində onun müəllifinin adının yazılmaması olmuşdur (amma 1463-cü ildə əsərin üzü köçürülmüş Kembric nüsxəsində onun Hinduşah ibn Səncər tərəfindən yazıldığı bildirilmişdir). Əsərin "Əs-sihah ül-əcəmiyyə" adlandırılmasının səbəbini müəllif ərəbcə olaraq yazılmış bölmədə bu şəkildə açıqlayır: "Kitab Cövhərinin "Əs-sihah ül-ərəbiyyə"sinin üslubunda yazıldığı üçün onu "Əs-sihah ül-əcəmiyyə" adlandırdım". Əsərin dünyanın müxtəlif kitabxanalarında 30-a qədər əlyazma nüsxəsi olduğu mənbələrdə qeyd olunmuşdur. Dəyərli bir lüğət xarakteri daşıyan bu əsəri, ilk olaraq, Qulamhüseyn Beqdeli 1982-ci ildə Bratislava nüsxəsi əsasında nəşr etdirmişdir.

Əsər üç hissədən, yəni ərəbcə müqəddimə, farsca-türkcə lüğət və ərəbcə yazılmış fars dilinin qrammatikasından ibarətdir. Müəllif tərtib etdiyi lüğət haqqında yazır: "Mötəbər kitabların çoxunun farsca yazıldığını və lüğətlə əlaqədar bunlara maraq göstərənlərin çoxunun qeyri-farslar olduğunu görüncə o güvənilir kitablarda olanlardan yararlanmaq istəyən bütün talibləр üçün asanlaşdırıcı bir tərzdə topladım".

XI-XIII əsrlərdə tərtib edilmiş farsca lüğətlərə nisbətən "Əs-sihah ül-əcəmiyyə"nin leksik tərkibi çox zəngindir. Lüğətdə 10 minə yaxın türkcə sözdən istifadə edilmişdir. Əsər 31 bab, 393 fəsildən ibarətdir. Müəllif lüğətində fars mənşəli sözləri seçib verməyə səy göstərməsinə baxmayaraq, çox qədim dövrlərdən qonşu dilə keçmiş və tanınmaz hala düşmüş bir sıra türk mənşəli leksik vahidləri də fars hissəsinə daxil etmişdir.

"Əs-sihah ül-əcəmiyyə" türk və fars leksik vahidlərinin geniş şəkildə tədqiqata cəlb edilməsi baxımından hər iki xalqın leksikologiyası tarixində ilk təşəbbüs olaraq diqqəti çəkir. Əsərdə qədim türk mənşəli sözlər öyrənilmiş, sözün məna xüsusiyyətlərinin düzgün bir şəkildə açıqlanmasına diqqət göstərilmişdir.

Əsərin farsca-türkcə lüğət bölümündə adlar və feillər ayrı-ayrılıqda nəzərdən keçirilmişdir. Bir məsələni də qeyd edək ki, əsərdə Azərbaycan dili ifadəsi də işlədilmişdir. Doğrudur, tədqiqatçılar bu ifadənin hələ XI əsrdə Əbu Reyhan Biruni (973-1048) və Xətib Təbrizi tərəfindən (1030-1109) işləndiyini göstərirlər.

*Hinduşah Naxçıvaninin "Əs-sihah ül-əcəmiyyə" lüğəti dilimizin tarixini öyrənmək baxımından çox qiymətli bir mənbədir.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

***Təzə kitab təzə yola bənzəyir: oxucunu yeni düşüncələr, hislər aləminə aparır, qarşısında üfüqlər açır, mənzərələr canlandırır, adamlarla tanış edir. Lakin coğrafi mühitdə olduğu kimi, mənəvi, poetik mühitdə də yollar bir-birindən seçilir, fərqlənir. Bir cığır bizi min dəfə gördüyümüz, tamaşa etdiyimiz, gözümüzə, könlümüzə hopmuş yerə aparar, başqa bir cığır isə bizi fikrimiz yetməyən uzaqların əlvan mənzərələri qoynuna atar. Yolumuza neçə-neçə yaxşı dost çıxara bilər.***

*Yeni nəşrlər*

# Nuh yurdunun heyranı




Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Aybəniz Ağaqızının "Nuh yurdunun heyranı" adlı kitabını vərəqlədikcə xatirələr məni alıb keçmişə apardı, bir şairin ömür karvanında neçə-neçə tanış simalar gördüm, gözüm önündə təzə poetik mənzərələr canlandı.

"Nuh yurdunun heyranı" müəlliflərin birlikdə yazdıqları ikinci kitabdır. Kitab tanınmış şair-dramaturq Kəmalə Ağayevanın həyat və yaradıcılığına işıq salır. Oxucu kitabda Kəmalənin ailəsi, şeirləri, poemaları, dramları, tərcümələri, məqalələri, onun haqqında yazılmış xatirələr, nəsil şəcərəsi, pedaqoji və teatral fəaliyyəti haqqında geniş məlumat əldə edə bilir. Burada həmçinin xatirələr, müxtəlif illərdə çəkdirdiyi fotoşəkillər, sənədlər də öz əksini tapmışdır. Kəmalə Ağayeva ana Vətənin hər qarışını ürəkdən sevir, Vətən mülkünün cazibədar poetik panoramını yaratmaq üçün bütün imkanlarından istifadə edir. Şairin yaradıcılığında ölkəmizin ayrı-ayrı guşələrinin gözəlliyini təqdim edən şeir çələngi formalaşmışdır:

*Əlimdəki bu qələm də sənindir,*
*Könlümdəki xoş aləm də sənindir,*
*Gözümdəki bu şöləm də sənindir.*
*Ömrə həyanım mənim,*
*Azərbaycanım mənim.*

Vətən məhəbbəti "Alqış", "Məram", "Yaddan çıxmaz Qarabağ", "Vətən parçası", "Mənim azad respublikam", "Doğma diyarım" və digər lirik parçalarda müxtəlif poetik şəkillərdə əksini tapır. Kəmalə Ağayevanın bir çox şeirlərində dağların, qayaların oyatdığı assosiasiya, poetik hiss beləcə geniş və ictimai siqlətlidir: güclü vətəndaşlıq duyğularının, keçmiş və gələcəyimizlə bağlı narahat və inamlı düşüncələrin məhsuludur. Onun Naxçıvan mövzusunda yazılmış şeirlərində Azərbaycanın ayrılmaz parçası olan bu ecazkar yurdun özünəməxsusluqları bütün incəlikləri və dərin mənaları ilə yüksək poetik səviyyədə, orijinal bədii vasitələrlə oxucu qəlbini ələ alır. Kəmalə Ağayeva üçün ata-baba yurdu Naxçıvan ilk dəfə rübabını kökləməyə başladığı, ona ilham bəxş etmiş Nəqşi-cahandır. Şair bütün ruhu ilə bu torpağa bağlıdır, ömrü boyu bu torpaqda kəsdiyi duz-çörəkdən qüvvət almışdır. Naxçıvanın Azərbaycanın tarixində və taleyindəki yeri və mövqeyi, diyarın yetirmələrinin xidmətləri, bu coğrafiyanın insanlarının düz ilqarlı möhkəm mənəvi dəyərləri, od çaxarlı təbiəti Kəmalənin şeirlərində bütün təbiiliyi və daşıdığı mənaları ilə bir yerdə ilhamla vəsf olunmuşdur.

Lirik poeziya insan duyğularının, insanın ürək döyüntülərinin yüksək ifadə vasitəsidir; gündəlik həyatda insanın qəlbindən keçən fikir və düşüncələrin, iztirab və kədərin, sevincin hər bir şəxsə nəsib olmayan ifadə tərzidir. Ümumilikdə isə son dərəcə mürəkkəb aləmin poetik bir dil ilə müasirlərə və gələcək nəslə nəqlidir. Şeir bütövlükdə, adətən, saf və təmiz, titrək və həssas qəlbin məhsulu olduğundan bu zərif yaradıcılıq da insanlara təsir edir, onların saflaşmasına, təmiz və ülvi duyğularla, məhəbbətlə yaşamasına kömək edir. Belələri pəmbə buludlar altından utana-utana çıxan parlaq ay kimi xoş təbəssüm saçır, insanda rahat və əsrarlı duyğular yaradır və yüksək məhəbbətlə çırpınan bir qəlbin arzu və istəklərini, həzin nəğmələrini oxucuya çatdırır.

Kəmalə Ağayevanın lirik qəhrəmanının düşüncə tərzi "Mona Liza qarşısında", "Eyfel qülləsi", "Mari Roz küçəsi", "Sevdim Türkiyəni" və digər şeirlərdə Türkiyəyə, Amerikaya, Özbəkistana, Parisə… doğru genişlənir. Göz önündə açılan üfüqlər şeirdə poetik üfüqlərə dönür. Eyfel qülləsinin ucalığından Azərbaycan görünməsə də, bu qüllədə dayanmış şairin mənəvi ucalığından Vətən göz önündə təzədən canlanır. Şairi Parisin işıqlı, bər-bəzəkli küçə və meydançalarından daha çox ömrünü-gününü, gözlərinin nurunu bu işığa verənlər düşündürür. Kral heykəlləri arxasında gizlənmiş xalq heykəllərini görür. Ədəbiyyatımıza xas olan yüksək insani mövqedən, azadlıqsevərlik, sülhsevərlik mövqeyindən çıxış edir. Bu sətirlərin müəllifi 1989-cu ildə Türkiyədə keçirilən Yunis Əmrə günlərindən yenicə qayıdan Kəmalə xanımla onun mənzilində birsaatlıq videoçəkiliş aparmış, maraqlı bir müsahibəni tamaşaçılara təqdim etmişdir.

Kəmalə Ağayeva həm də nəğməkar şairdir. Sözlərinə mahnılar qoşulan "Bir yerdə olaq", "Arpaçay", "Niyə gəlmədin", bütövlükdə 27 şeiri, eləcə də digərləri poetik və ahəngdardır, musiqiyə yatımlıdır. Musiqi, mahnı Kəmalə Ağayevanın şeirlərinin ritmində, ahəngində çağlayır.

Onun şeirləri zərif bir qadın ilhamının məhsulu – titrək yarpaqlarıdır. Təbdən gəlir. Ona görə də şifahi xalq şeiri kimi duru və şəffafdır. Sevgi yolunda inamla çırpınan, həsrətlə qovrulan, anbaan gözləri yaşla dolan, şam kimi alovlanan, soyuq üz gördükdə küskünləşən, alov dili kimi titrəyən, soyuq münasibətdən sarsılan, eşqini itirəcəyindən qorxan, minbir bəlalara dözüb sevgisini qorumağa çalışan, əzabla çırpınan, lakin heç vaxt öz qürurunu itirməyən bir qızın, bir qadının, nəcib bir ananın ürək döyüntüləridir. Sevən ürəklərin çox qəribə bir "mənəmliyi" də olur: sevir, məhəbbətlə qovrulur, ölür-dirilir, lakin qürurunu itirmək istəmir, hətta bu qüruru şirin vüsala da dəyişmək istəmir, küsüb ayrılmış sevgilinin qayıtması ilə öz qürurunu itirəcəyindən qorxur. Bu da yüksək təbii insani hislərdir.

Sevgi və inam! Poeziyada uğurlu yol, bəlkə də, burdan başlayır. İnam kəlməsi poetik həqiqət kimi səslənməyəndə şeir heç bir təsir gücünə malik olmur. İnam və cəsarət şeirlərdəki düşüncə və ifadə tərzinə aydın bir mövqe, müəyyənlik gətirir. Kəmalə Ağayevanın lirik qəhrəmanının səsi ürəkdən gəlir, oxucunu inandırır. Onun poemaları şair cəsarətinin, şair axtarışlarının uğurlu nəticələri kimi geniş və ətraflı söhbətə layiqdir.

"Ürəklərdə qaldı adınız" və "Gözü yolda qalan var" poemalarının mövzusu ayrı-ayrı olsa da, mahiyyətcə, poetik ruh etibarilə bir-birinə yaxın əsərlərdir.

Kəmalə Ağayevanın hələ 22 yaşında yazdığı "Məhsəti" adlı 2 pərdəli mənzum faciəsi dəfələrlə Bakı və Naxçıvan səhnələrində tamaşaya qoyulmuş, böyük uğur qazanmışdır. "İsmət", "Mənim tanrım gözəllikdir, sevgidir", "Apardı sellər Saranı" pyesləri, uşaqlar üçün səhnə əsərləri Naxçıvan teatrında ardıcıl olaraq sənətsevərlərə təqdim olunmuş, Türkiyədə qastrol və dostluq görüşlərində müvəffəqiyyətlə göstərilmişdir.

*Bir sözlə, müəlliflərin gərgin əməyi ilə ərsəyə gələn "Nuh yurdunun heyranı" təkcə şair-dramaturq, ömrünün 80-ci ilini yaşayan Kəmalə Ağayeva üçün deyil, həm də oxucular üçün dəyərli bir kitabdır.*

**Hüseyn ƏSGƏROV**
**yazıçı-publisist**

# Xalq yaradıcılığı günü keçirilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi və Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Ləkətağ Kənd Mərkəzində xalq yaradıcılığı günü keçirilib.*

Tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynli açaraq bir neçə ildir, muxtar respublikada keçirilən xalq yaradıcılığı günlərinin əhəmiyyətindən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyev çıxış edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamına əsasən, muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan milli-mənəvi dəyərlərin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır.



Vurğulanıb ki, xalq yaradıcılığının, əsrlərboyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Ötən müddət ərzində muxtar respublikamızda xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülüb, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilib, onlar milli geyim dəstləri ilə təmin edilirlər.

Sonra Culfa şəhər, Əbrəqunus, Milax, Ərəfsə, Camaldın, Ləkətağ kənd mədəniyyət evlərinin "Buta", "Ağ çiçəklər", "Tənzərə", "Lolo" folklor ansambllarının ifasında qədim xalq rəqsləri, xalq oyun və tamaşaları tədbir iştirakçılarına təqdim edilib, qədim milli musiqi alətlərimiz olan balabanda, zurnada, tütəkdə, sazda musiqi nömrələri səsləndirilib.

Həmin gün Ləkətağ kənd mədəniyyət evində el sənətlərinin müxtəlif növlərindən ibarət sərgi təşkil olunub.

Belə tədbirlərin digər mədəniyyət müəssisələrində davam etdirilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Dövlət Kukla Teatrı yeni mövsümə necə hazırlaşır?

Muxtar respublikamızda uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsində, onların mənəvi-estetik tərbiyəsinin formalaşmasında böyük rol oynayan mədəniyyət müəssisələrindən biri də Naxçıvan Dövlət Kukla Teatrıdır. Ötən il 25 yaşını geniş şəkildə qeyd edən teatr qonşu Türkiyədə, İranda, habelə Tacikistanda keçirilən festivallarda iştirak edib. Kollektiv üç dəfə Tacikistanın paytaxtı Düşənbədə keçirilən "Kuklaların fantaziyası" adlı festivalda uğurlar qazanıb. Ötən ilin aprel ayında keçirilən festivalda dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, repertuarının daim zənginləşdirilməsi qayğısına qalınan teatrda klassik yazıçı və şairlərlə yanaşı, müasir ədiblərin də yaradıcılığına yer ayrılır, yerli yazarların ədəbi nümunələri uğurla səhnələşdirilir. Belə əsərlərlə kollektiv hər il muxtar respublikanın kənd və qəsəbələrində qastrol səfərlərində balacaların qonağı olur.

Bəs teatr yeni mövsümə necə hazırlaşır? – sualımızı teatrın direktoru, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova cavablandırır:

– Əvvəlcə qeyd edim ki, teatrda tamaşaya qoyulan əsərlərin əsas ideyası uşaq və yeniyetmələri milli və mənəvi-əxlaqi keyfiyyətlərə yiyələndirmək, onların dünyagörüşünü formalaşdırmaqdır. Bu, bizim üçün başlıca şərtlərdən biridir. Sentyabrın 14-də Kəmalə Ağayevanın "Sirli sözlər" tamaşası səhnəyə qoyulacaqdır. Teatrda başqa tamaşalara da hazırlıq görülür. Belə ki, Zaur Vedilinin "Çalıb-çağıran ağac", Səbuhi Hüseynovun "Dəniz əfsanəsi" tamaşaları səhnəyə hazırlanır. Bu tamaşalar isə oktyabr ayında səhnəyə qoyulacaq. "Çalıb-çağıran ağac" tamaşası yadelli işğalçıların ölkəyə daxil olmasını əvvəlcədən xəbər verən ağacdan bəhs edir. Bu ağacın timsalında uşaqlara vətəni qorumağın ən böyük və şərəfli vəzifə olması ideyası aşılanır.

Qeyd edək ki, teatr yeni mövsümdə qastrol səfərlərinə də çıxacaq.

**Nigar MUSTAFAYEVA**

# Voleybol üzrə yoldaşlıq görüşü

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüşdə Şahbuz və Ordubad komandaları üz-üzə gəlib. Yoldaşlıq görüşündən öncə çıxış edən federasiyanın sədr müavini Aydın Mirzəyev bildirib ki, son illər muxtar respublikada idman sahəsinə göstərilən diqqət və qayğı nəticəsində idmançılarımız hər bir yarışda uğurla çıxış edirlər.

Daha sonra federasiyanın sədr müavini görüşün qaydaları haqda iştirakçıları məlumatlandırıb və onlara uğurlar arzulayıb.

Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşma Şahbuz voleybolçularının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Hər iki komandaya hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

# Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Culfa rayonunun Saltaq icmasının tender komissiyası icma qrupunun hazırladığı "Elektrik sistemlərinin bərpası və genişləndirilməsi" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

** Maraq məktubu*
** Nizamnamə*
** Maddi-texniki baza və insan resursları barədə məlumat*
** Son illərdə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*
** Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 10 sentyabr 2015-ci il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Culfa rayonu, Saltaq kəndi,***
***tender komissiyası***
***icma qrupunun sədri: Azad Kazımov***
***Əlaqə telefonu: (050) 551-85-45***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İşləməklə yanaşı, təhsil alan işçilərə hansı ödənişli təhsil məzuniyyəti verilir?*

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 123-cü maddəsinə əsasən, işləməklə yanaşı, təhsil alan işçilərə aşağıdakı ödənişli təhsil məzuniyyətləri verilir:

- müvafiq tədris mövsümü sessiyalarında tədris-təlimdə iştirak etmək, laboratoriya işlərini yerinə yetirmək, yoxlamaları və imtahanları vermək üçün;
- dövlət imtananlarını vermək üçün;
- diplom layihəsini (işini) hazırlamaq və müdafiə etmək üçün.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Babək rayonunun Aşağı Uzunoba kəndində yaşamış Əsgərova Fatma Məmmədvəli qızının adına verilmiş 181 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Tarqulu Abbasqulu oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 668